# ANTİTERROR ŞƏHİDLƏRİ - VƏTƏNİ BÜTÖV EDƏNLƏR

***Günlərlə, aylarla üzərində işlədiyim, müxtəlif mənbələrdən, KİV məlumatlarından istifadə etdiyim və toplu halında birləşdirdiyim məlumat toplusunun növbəti məqalələrini Sizə təqdim edir, Allahdan bütün Şəhidlərimizə rəhmət diləyirəm!***

## CƏFƏROV XƏZƏR QALİB OĞLU



Şəhid kapitan Xəzər Qalib oğlu Cəfərov 17 iyun 1991-ci ildə Neftçalada anadan olmuşdur. 1998-ci ildə Neftçala şəhər Əlif Piriyev adına 2 saylı tam orta məktəbinin birinci sinfinə qədəm qoymuşdur. 2005-ci ildən Bakıda Fizika-Riyaziyyat-İnformatika təmayüllü liseydə təhsil almışdır. 2009-cu ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olmuşdur. 2013-cü ildə ali hərbi təhsilini burada motoatıcı ixtisası üzrə başa vuran Xəzər leytenant rütbəsi almışdır. 25 iyul 2013-cü ildən 24 iyun 2014-cü ilədək Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində motoatıcı taqım komandiri kursundan keçdikdən sonra Azərbaycan Silahlı Qüvvələrinin Beyləqanrayonunda yerləşən "N" saylı hərbi hissəsində hərbi vəzifəsinin icrasına başlamışdır.

1-5 aprel 2016-cı ildə Aprel döyüşlərindəXəzər Cəfərov zabit kimi iştirak etmişdir. Cəbrayıl rayonunun Lələtəpə istiqamətində olan əlverişli mövqelər, strateji nöqtələr, o cümlədən Lələtəpə zirvəsinin Azərbaycan Ordusu tərəfindən işğaldan azad olunmasında, düşmənin "Ohanyan səddi"nin darmadağın edilməsində və düşmənə layiqli dərs verilməsində böyük xidmətləri olmuşdur. Xəzər Cəfərov Aprel döyüşlərinin baş verdiyi 2016-cı ildə baş leytenant rütbəsi almışdır. 2017-ci ildə bölük komandiri vəzifəsinə təyin olunmuşdur. 2019-cu ildə Füzuli rayonunda yerləşən "N" saylı hərbi hissədə hərbi xidmətini davam etdirmişdir. 2020-ci ildə kapitan rütbəsinə yüksəlmiş və Maddi-Texniki Təminat üzrə rəis vəzifəsinə təyin olunmuşdur.

Azərbaycan Ordusunun kapitanı olan Xəzər Cəfərov 2020-ci il sentyabrın 27-dən Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsində iştirak etmişdir. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə vuruşmuş, böyük qəhrəmanlıq və igidlik nümayiş etdirmişdir. Döyüşlər zamanı hər iki ayağından güllə yarası alaraq ağır yaralanmış və 4 ay xəstəxanada müalicə aldıqdan sonra yenidən xidmətini davam etdirmişdir. Qəhrəmanımız 44 günlük şanlı Vətən müharibəsində qazandığımız parlaq Zəfərdə danılmaz xidmətlər göstərmişdir. Vətən müharibəsi bitdikdən sonra Xəzər Cəfərov cənab Prezidentimiz İlham Əliyev tərəfindən "Cəsur döyüşçü", "Füzulinin azad olunmasına görə","Xocavəndin azad olunmasına görə" medalları ilə, baş nazir cənab Əli Əsədov tərəfindən "Vətən müharibəsi iştirakçısı" medalı, Müdafiə nazirimiz cənab Zakir Həsənov tərəfindən 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalı ilə təltif edilmişdir. Vətən müharibəsindən sonra Xəzər Cəfərov 2021-ci ildə Xocavənd rayonunda hərbi xidmətinə davam etmiş, 2023-cü ilin aprelində hərbi hissənin qərargah rəisi vəzifəsində çalışmışdır.

Xəzər Cəfərov 19 sentyabr 2023-cü ildə rəşadətli Azərbaycan Ordusunun Qarabağda separatçı və təxribatçı fəaliyyət göstərən erməni qəsbkarlarına qarşı başlatdığı lokal xarakterli antiterror əməliyyatlarında iştirak etmişdir. Ağdam-Ağdərə istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərmişdir. Kapitan Xəzər Cəfərov 20 sentyabr 2023-cü ildə Ağdam rayonunun (indiki Ağdərə rayonunun tərkibinə daxil edilmiş) Sırxavənd kəndində döyüş tapşırığının yerinə yetirilməsi zamanı qəhrəmancasına Şəhidlik zirvəsinə yüksəlmişdir. Onun nəşi 22 sentyabr 2023-cü ildə Neftçala Şəhidlər Xiyabanında torpağa tapşırılmışdır.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunmasında yüksək peşəkarlıq, şücaət və mərdlik göstərmiş, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqlənmiş Xəzər Cəfərov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 07.11.2023-cü il tarixli Sərəncamına əsasən ölümündən sonra 3-cü dərəcəli "Rəşadət" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilmişdir.



***SEVİNDİK NƏSİBOĞLU***
***11-ci sinif şagirdi, şair-publisist, AJB üzvü***
***(İstifadə edilmiş mənbələr: oxu.az, report.az, qafqazinfo.az, unudulmazlar.az)***